# Belarus daim Azərbaycanın yanında olduğunu nümayiş etdirir

**"Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə dövlət səfəri adından da göründüyü kimi, böyük məna və ciddi əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, dövlət səfərləri işgüzar və rəsmi səfərlərdən daha yüksəkdə dayanır. Bu səfər ikitərəfli münasibətlərimizin və dövlət liderləri arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu göstərir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat söyləyib ki, səfərlərin əhəmiyyəti ilk növbədə imzalanmış sənədlərdə öz əksini tapır: "Bu səfər çərçivəsində də bir çox sahələr üzrə əməkdaşlığın genişləndirilməsinə və dərinləşdirilməsinə xidmət edən bir sıra sənəd imzalanıb. Görünür, dövlət başçılarının və xalqlarımızın tarixi dostluq əlaqələri nəticə etibarilə ikitərəfli münasibətlərimizin ən yüksək səviyyəyə qalxmasını şərtləndirib. Fundamental məsələlərdə hər iki dövlət, demək olar ki, ortaq mövqedən çıxış edir".

Deputat qeyd edib ki, Lukaşenko Azərbaycanın haqq işini müdafiə etdiyini dəfələrlə bəyan edib: "Azərbaycan da analoji addım ataraq Belarusa Avropa platformalarında dəstək nümayiş etdirib. Yəni iki ölkə arasında dostluq münasibətinin tarixi yeni deyil. Belə olan halda, bu səfər də bütün istiqamətlər üzrə əlaqələrimizin inkişafı üçün yeni imkanlar açır. Prezident İlham Əliyev də vurğuladığı kimi, biz bu gün tarixi zəfərə imza atmış, öz ərazi bütövlüyümüzü və suverenliyimizi əbədi təmin etmiş dövlət kimi işğaldan azad olunmuş torpaqlarımızın bərpasını qarşımızda yeni hədəf qoymuşuq və Belarus dövləti ilə bu istiqamətdə əməkdaşlığın qurulmasında maraqlıyıq. Yeri gəlmişkən, Lukaşenko da Qarabağ və Şərqi Zəngəzurun bərpası kimi şərəfli bir işdə Belarusun dəstəyi olacağından məmnunluğunu ifadə edib".

Elman Nəsirovun sözlərinə görə, Belarus həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmünaqişə dövründə Azərbaycanın yanında olduğunu nümayiş etdirib. Hər iki dövlət başçısının səfərlə bağlı mətbuata verdiyi bəyanatlarda da bu məqam özünü bir daha təsdiqlədi. Elə bu qarşılıqlı dəstək nümayişi zaman-zaman ölkələrarası əməkdaşlığı gücləndirib. Bunun nəticəsidir ki, qarşıdakı illərdə mövcud əlaqələrin daha da dərinləşdirilməsi üçün səfər çərçivəsində yeni hədəflər müəyyən edilib.

"Belə ki, Lukaşenkonun Bakıya səfəri zamanı əldə edilmiş razılaşmaların icrası ilə bağlı məsələlər diqqət mərkəzində saxlanılacaq. Azərbaycanla Belarus arasında onsuz da yüksək səviyyədə olan ticarət dövriyyəsi, eləcə də nəqliyyat əlaqələri bundan sonra daha da inkişaf etdiriləcək. Həmçinin iki dövlət arasında birgə müəssisələrin təşkili işinə baxılacaq, maşınqayırma və digər sahələrdə təcrübə mübadiləsi aparılacaq. Bundan başqa, hərbi sənaye sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət ayrılacaq", - deyə müsahibimiz bildirib.

Deputat sonda vurğulayıb ki, bu səfər Azərbaycan-Belarus münasibətlərinin inkişafı ilə bağlı atılmış addımların təhlili və qiymətləndirilməsi, eləcə də bundan sonra atılacaq addımların müəyyən edilməsi baxımından əlamətdardır: "Dövlət başçılarının iki ölkə arasındakı münasibətlərin indiki səviyyəsindən razılığını ifadə etmələri də sevindirici haldır. Biz bir daha şahidi olduq ki, Azərbaycanla Belarusun dostluğu, qardaşlığı və strateji tərəfdaşlığı geniş potensiala malikdir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 18 may, № 103.- S.9.